Tarix və onun problemləri, №2 2010

**ŞAHIN MUSTAFAYEV**
***AMEA Şərqşünaslıq İnstitutu,Tarix elmləri üzrə fəlsəfə doktoru***

Açar sözlər: *Anadolu, Osmanlı, Qaraman, türk, etnogenez, qarşıdurma*
Ключевые слова: *Анатолия, османцы, Караман, турки, этногенез, противостояние*
Keywords: *Anatolia, Ottoman, Turk, Karaman, ethnogenesys, confrontation*

## 1430-1440-CI ILLƏRDƏ OSMANLI-QARAMAN QARŞIDURMASI

Qərbi və Orta Anadoluda türk bəyliklərinin əksəriyyətini fəth və ləğv etdikdən sonra Osmanlı dövləti Qaraman bəyliyinə qarşı təzyiqini xeyli artırmışdı. Osmanlı təhlükəsi ilə üz-üzə qalan Qaraman hökmdarı İbrahim bəy vəziyyətin ağırlığı və çıxılmazlığını anlayırdı. Şikarinin yazdığına görə, İbrahim bəy öz oğullarına belə vəsiyyət etmişdi: "Bənim zamanıma gəlincə Osmanoğulları bizdən qorxarlardı. Bizim onların üstünə qələbəmiz var idi. Şimdən sonra onlar bizə qələbə edər, müdara idəsiz" [1, s.191-192]. Qeyd edildiyi kimi, artıq bu dövrdə qaramanlılar üçün osmanlı təzyiqini zəiflətmənin ən uyğun siyasi və strateji üsullarından biri osmanlıların Avropadakı düşmənləri, o cümlədən Balkan dövlətləri ilə əlaqə yaradıb, onları qərbdən ümumi düşmən üzərinə hücuma təhrik etməkdən ibarət idi. Təbii ki, qaramanlıların bu siyasəti Qərb səlibçilərinin də mənafeyinə uyğun gəlirdi. Eyni zamanda, məhz bu məqam Osmanlı dövləti tərəfindən qaramanlılara qarşı güclü təbliğat vasitəsi kimi onları Anadolu cəmiyyəti və islam dünyasının gözündən salmaq üçün məharətlə istifadə edilirdi. Erkən osmanlı müəlliflərinin əsərlərində qaraman türklərini açıq şəkildə "müsəlmanların düşməni" və "kafirlərin müttəfiqi" kimi göstərilir, onlar islama zidd mövqeli olaraq təqdim olunurdular. Osmanlı qaynaqlarında bildirildiyinə görə, "Hər zaman Qaramanoğlının kafir hükkamı (xristian hakimləri – Ş.M.) ilə nəhani ittifaqı olub sultan-i islama (osmanlı sultanına – Ş.M.) müxalifət dəmində müvafiqət üzrə olurlar idi" [2, s.360]. Sultan II Murad "Qəzavatnamə"sində qeyd edilir ki, guya Bizans imperatoru ("İstanbul təkvuru") Qaramanoğlu İbrahim bəyə məktub göndərib osmanlılara qarşı səylərini birləşdirməyi təklif etmişdi [3, s.34].

Xüsusilə Avropada antitürk əhval-ruhiyyəsinin qızışdığı 1430-1440-cı illərdə xristian dövlətlərinin osmanlılara qarşı bütün fəaliyyəti osmanlı müəllifləri tərəfindən qaramanlıların təhrikləri ilə izah edilməyə, Qaraman türkləri "kafir" xristianların Anadoludakı sadiq müttəfiqi və casusu kimi təqdim edilməyə başlamışdı. Məsələn, macar və serblərin osmanlılara qarşı əməkdaşlığını təsvir edən Xoca Səadəddin yazır ki, Sultan II Murad "Vılkoğlunun (Serb despotu Vuk Brankoviçin oğlu Georgi Brankoviç (1427-1456) – Ş.M.) Qaramanoğlu ilə Üngürüs kralının (I Ulaslo adı ilə macar kralı (1440-1444) olmuş Vladislav Yagellon nəzərdə tutulur) ittifaqına vasitə olduğın" öyrənmişdi [2, s.359]. Və ya 1440-cı illərdə Yanoş Hunyadinin başçılığı ilə başlayan və Osmanlı dövlətini olduqca ağır vəziyyətə salan səlib yürüşü dövründə qaramanlılar "kafir düşmənlə" əməkdaşlıqda ittiham edilmişdilər. Belə ki, anonim "Təvarix-i al-i Osman" xristianlarla ittifaq bağlayan Qaraman türklərini sadəcə siyasi rəqib deyil, din düşməni kimi təsvir edir ki, bu da təsadüfü deyil [4, s. 68].

Tarixi analogiya baxımından burada bir daha XV əsrdə Anadolunun türk mühitində gedən etnik prosesləri Rusiyada təqribən sinxron və bənzər şəkildə baş verən hadisələrlə, Moskva knyazlığı və Böyük Novqorod arasındakı münasibətlərlə qarşılaşdırmaq yerinə düşərdi. Bu iki dövlət arasında mövcud olan rəqabət o dövrün rus ictimai şüurunda yalnız hərbi-siyasi deyil, eyni zamanda dini-etnik qarşıdurma kimi qəbul edilirdi. Təsadüfi deyil ki,

rus salnaməsi Moskva knyazı III İvanın hərbi səfərini təsvir edərkən, onun novqorodluların üzərinə "sanki xristianlara qarşı deyil, bütpərəst və pravoslav dinindən üz döndərmişlərə qarşı" aparıldığını qeyd edir. L.N.Qumilyov bu faktın "etnik diaqnostika" üçün önəmli olduğunu vurğulayır. Göründüyü kimi, XV yüzilliyin sonunda "moskovitlər" adlanan yeni etnosun nümayəndələri Qədim Rusiyanın bir qalığı olan novqorodluları artıq "özlərinki" kimi qəbul etmirdilər. Çünki o dövrdə "etnik rəğbətin indikatoru", başqa sözlə, göstəricisi din idi. Moskvalılar katoliklərlə ittifaqa girmiş novqorodluları bütpərəstlərə bərabər tutur və onlara "özününkü" kimi deyil, "özgələri" kimi baxırdılar [5, s.191]. Bu dövrdə osmanlılarla qaramanlıların arasındakı münasibətlərdə bir-birlərinə baxışlarında da eyni etnomədəni ziddiyyətin, "özününkü" və "özgəsi" qarşıdurmasının inikasını görürük.

Maraqlıdır ki, osmanlı müəlliflərindən fərqli olaraq, qaramanlıların mövqeyini əks etdirən Şikarinin "Tarixi"ndə İbrahim bəy dindar müsəlman və əhli-tövhid adlandırılır və qeyd edilir ki, hətta o, "təbəqə-i övliyada "qütb" məqamına vasil olmuşdur" [1, s.191]. F.Babingerin də fikrincə, bu bəy orta çağ islam aləminin ən maraqlı qəhrəmanlarından biri olmuşdur [6, s.237]. O, XV əsr italyan qaynaqlarında "Böyük Türk" (*Gran Turco*) adlandırılan Sultan II Məhməddən fərqləndirilmək üçün o, "Böyük Qaraman" (*Gran Caraman*) adı ilə anılmaqda idi [6, s.29].

Yuxarıda göstərilən ziddiyyəti nümayiş etdirən örnəklər bununla məhdudlaşmırdı. Eyni zamanda, osmanlı "təbliğatı" qaramanlıları sözünə bivəfa, əhdi-peyman bilməz tayfa kimi təsvir edir, orta çağ türk mənəvi kodeksi üçün önəmli olan bu dəyərləri pozduqlarını iddia edirdi [4, s.63]. Bununla əlaqədar osmanlı mənbələrində yer alan rəvayətlər əsasən "siyasi təbliğat"ın uydurması olmasına baxmayaraq, onlar Anadoluda sərt qarşıdurma dövründə iki türk topluluğunun bir-birinə baxış və görüşlərini açıqlamaq nöqteyi-nəzərindən olduqca önəmlidir. Belə misallar bu iki topluluğun bir-birini sadəcə siyasi rəqib kimi deyil, artıq etnodini baxımdan da "yabançı", "özgə" bir topluluq kimi qəbul etdiklərini göstərir. Orta çağda Anadoluda türk xalqının formalaşması, etnogenezi prosesinin öyrənilməsi baxımından belə tarixi müşahidələrin nəzərə alınması mühümdür. K.Jukovun doğru qeyd etdiyi kimi, "XV yüzillikdə Kiçik Asiyada iki mərkəz ətrafında erkən feodal xalqlarının formalaşması üçün ilkin şərtlər yaranmışdı – Bursa (şərti olaraq, bu xalqı osmanlı türk xalqı adlandırmaq olar) və Konya (qaramanlı türk). Əlbəttə, bu fərziyyə geniş sübut və dəlillər tələb edir. Ancaq Qaraman bəyliyinin öz ictimai-iqtisadi quruluşunda, əsasən, səlcuq dövründən qalma özünəməxsus özəlliklərə sahib olduğu da qeyd edilməlidir. Görünür, təsadüfi deyil ki, əcnəbilər (məsələn, 1466-cı ildə rus taciri Vasiliy) osmanlı sultanının ərazilərini təsvir edərkən onları "türk torpaqları" adlandırır və "qaramanlı torpaqlarından" fərqləndirirdilər" [7, 142].

Yuxarıda haqqında bəhs olunan "özgəliyin", "yabançılığın" hər iki topluluq tərəfindən artıq müəyyən dərəcədə etnomədəni səviyyədə dərk edildiyinə dair tarixi qaynaqlarda bir sıra digər dəlillərə də rast gəlmək mümkündür. Belə ki, onların bir-biri haqqında "qövm" sözünü işlətmələri, zənnimizcə, təsadüfi hadisə deyil. Nəzərə almaq lazımdır ki, orta çağ türk mənbələrində bu məfhum, əsasən, etnik məna ifadə edirdi [8, s.327]. Şikarinin əsərində osmanlı sultanı I Səlim (1512-1520) qaramanlıları "qövm" adlandırır və deyir: "Qaramanoğlu bu aradan getməyincə Qaraman qövmü bizə müti olmaz" [1, s.205]. Bu rəvayətin tarixi gerçəkliklə heç bir əlaqəsi yoxdur, çünki I Səlimin zamanında Qaramanlı Qasım bəy artıq həyatda yox idi. Buna baxmayaraq, burada qaramanlı müəllifin öz soydaşlarını necə dəyərləndirməsi, onlar haqqında ayrıca bir "qövm" kimi söz etməsi olduqca önəmlidir. Eynilə osmanlı tarixçisi Lütfi paşanın da əsərində qaramanlıların "bivəfa qövm" adlandırılmasını xatırlatmaq gərəkdir [9, s.83].

Bu örnəklərin mühüm cəhəti həm də ondan ibarətdir ki, onlar yalnız siyasi mübarizədə bilavasitə iştirak edən yüksək təbəqələrin görüşlərini deyil, həm də sıravi insanların rəyini

əks etdirir. Məsələn, anonim "Təvarix-i al-i Osman"da oxuyuruq ki, qaramanlılar heç bir zaman "osmanlı ilə dost olmaz. Dost olduğu fürsət buluncadır. Görməzmisin kim, bu yerdə (osmanlı ölkəsində - Ş.M.) dörd-beş atadan qalmışlardır, dəxi ginə kəndü yerlisinin nisbətini qomazlar. Niçəsi bu yerlərə gəldilər, cimriliklə bunda mal-ü rizq issi oldular, ginə kəndü yerlərini öyərlər. Bulsa, bundağı kar-ü-kəsbləri halal olub, andağı haram olduğu üçün yinə ol harama can virürlər. Bulsalar, bunda olan mal-ü-mülkləri qoyarlardı, varub anda həramilik idüb cimri olarlardı. Əgər inanmaz isən gör bunların bunda olanını. Birisin birisi bir məhallədə olanlar əlbəttə bir ölçümliyə girür – ya məhallə kətxudası olur, ya kətxudalıq əlinə girməzsə bari fikəh olur, yaxud subaşıları ilə olub mühtəsibləri ilə aşina olub, hələ bir dövlətsüzlükdən xali olmazlar. Ya qammaz olur. Andan sonra yüz kişi bir araya gəlsə, kimsəyə söz dəyməz. Andan sonra dünyada nə qədər qammaz varsa, həman kəndü tayifəsindəndür. Gəl bunu gör kim, Qaramanoğlunun başına şol qədər hallar gəldi. Hiç bir Qaramanludan işitdinizmi kim, "Qaramanlu zəbun oldı", ya "Osmanlı yegindür" diyə? Öldürürlər isə deməz. Osmanlı anları sır, qovar, qaçub gidərlər, ginə öyünməsin qomazlar. Anı gör kim, laf ilə yir mi bulmazlar, əgər Osmanlıyı kafir sır isə, ana dəxi sevinürlər. Əcəb budur ki, əgər bir kişi döysə, ol kəndüyi döyəni bir kişi döysə, ana nə sevinmək gərək? Çün kəndü ana zəbundur. Ol dəxi bərikuyə zəbundur. Zəbun olduğu buna nə? Bunlar kəndi miqdarın bilür tayifə deyildür" [4, s.63-64].

Aşıqpaşazadənin əsərində də osmanlılarla qaramanlıların bir-birinə münasibətlərinin açıq ifadəsini tapmaq mümkündür. Osmanlı üçün "Qaramanda bulunmaz doğru bir yar" deyən müəllif onların hər ikisini "bir qazanda qaynatsan belə bir-biri ilə qarışmayacağını" söyləyir [10, s.151]. Bu etiraf orta əsrlərdə Anadoluda osmanlı "çətiri" altında türk xalqının etnik təmərküzləşməsi prosesinin nə dərəcədə mürəkkəb və ağrılı mərhələlərdən keçdiyini göstərir. Çünki mənbələrdən gətiriliən bu örnəklər müxtəlif türk topluluqları arasında sadəcə siyasi deyil, həm də etnomədəni ziddiyyətləri nümayiş etdirən misallardır.

Qaraman bəyliyinin "kafir", yəni Avropanın xristian dövlətləri ilə ittifaq bağlayıb, osmanlılara qarşı təcavüzə keçməsinin ilk nümunələrindən biri 1433-cü ildə baş vermişdi. Qeyd edildiyi kimi, Qaramanoğlu İbrahim bəyin serb despotu və macar kralı ilə ortaq hərəkat barədə razılığa gəldiyini Aşıqpaşazadə və Xoca Səadəddinin əsərlərindən öyrənirik [10, s.174; 2, s.259]. Bu müəlliflərin yazdığına görə, Qaraman hökmdarı hücuma keçərək Bəyşəhiri və Hamidelinin bir sıra torpaqlarını işğal etmiş, osmanlıların Hamideli sancaqbəyisi olan Şərabdar İlyas bəyi də əsir götürmüşdü. Eyni zamanda, Rumeli istiqamətindən macar ordusunun təcavüzü başlamışdı. İki cəbhədən hücuma məruz qalan osmanlılar öncə Rumeli bəylərbəyi Sinan paşanın başçılığı ilə macar ordusunu Dunay çayı sahilində ağır məğlubiyyətə uğratmış və Macar kralını qaçmağa məcbur etmişdi. Bundan sonra Sultan II Murad vəzir Sarıca paşaya paytaxt Ədirnənin mühafizəsini tapşıraraq, ordusu ilə Anadoluya keçmiş və Qaraman bəyliyinə qarşı səfərə başlamışdı. Anadolu türklərinə bu səfərin onlara qarşı deyil, "kafirlərin müttəfiqi" İbrahim bəyin cəzalandırması məqsədilə həyata keçirildiyini nümayiş etdirmək üçün II Murad, Anadolu bəy sülalələrinin nümayəndələri olan Qaramanoğlu İsa bəyi (İbrahim bəyin qardaşı), Zülqədiroğlu Süleyman bəyi və Qazı Bürhanəddinin oğlu Zeynalabdini də öz yanında götürmüşdü. Osmanlı ordusu qısa bir zamanda Ağşəhir, Konya və Bəyhəşir qalalarını zəbt etmişdi. İbrahim bəy, osmanlı sultanının onu tamamilə hakimiyyətdən uzaqlaşdırıb, yerinə qardaşı İsa bəyi təyin etmək məqsədini güddüyünü anladıqdan sonra nüfuzlu üləmalardan Molla Həmzəni II Muradın hüzuruna göndərmiş və sülh bağlamağı xahiş etmişdir. Molla Həmzə Qaramanoğlu İbrahim bəyin Osmanlı xanədanının bir "yetişdirməsi" ("pərvərde-yí xanədan") və "zəif qulu" ("bənde-yi natəvan") olduğunu ifadə edərək, onun bir daha osmanlı torpaqlarına təcavüz etməyəcəyini və Qaraman elindən istənilən əraziləri verməyə hazır olduğunu bildirmişdi. Xoca Səadədddinin yazdığına görə,

"ağıllı və müdrik bir şəxs olan" ("mərd-i huşmənd və dana") Molla Həmzənin səyi nəticəsində razılıq əldə edilmiş və sülh imzalamaq üçün sultanın müsahibi və "Behcət-üt-təvarix" adlı tarixi əsərin müəllifi Molla Şükrüllah 1434-ci ildə Qaramanoğlu İbrahim bəyin yanına elçi olaraq göndərilmişdi [2, s.355-358; 11, s.413-415].

Qeyd edildiyi kimi, osmanlılarla Şərqi Avropa dövlətləri, xüsusilə Macarıstan arasında mövcud olan hərbi qarşıdurmanın ən kəskin və böhranlı dönəmlərindən biri 1440-cı illərə təsadüf edir. Osmanlıların Bizans imperiyası və Konstantinopol ətrafında çəkdikləri sədd getdikcə daralmaqda idi. Eyni zamanda, onların digər Balkan ölkələrinə təzyiqləri də artmaqda idi. Xristian kralları Roma papasının təhriki ilə türklərə qarşı birləşmənin və türklərin Mərkəzi Avropa istiqamətində irəliləməsinin, nəhayət, qarşısını almaq əzmində idilər. Bu dövrdə macar ordularının osmanlılara qarşı bir sıra uğurlu hərbi əməliyyatlar keçirdiyini görürük. Məsələn, Məzid bəyin başçılığı ilə Valaxiya torpaqlarında həyata keçirilən hərbi əməliyyat türklər üçün böyük müvəffəqiyyətsizliklə nəticələnmiş, onların böyük bir hərbi hissəsi macarlar tərəfindən tamamilə məhv edilmişdi. Bu məğlubiyyətin qisasını almaq üçün Sultan II Murad tərəfindən Rumeli bəylərbəyi Qula Şahinin rəhbərliyində göndərilən osmanlı ordusu eyni aqibətlə üzləşmişdi. Bu iki ağır məğlubiyyət osmanlıların Balkanlardakı mövqeyini sarsıdaraq onların Avropadakı düşmənlərini ruhlandırmış və Yanoş Hunyadinin başçılığı ilə türklərə qarşı böyük səlib yürüşünün başlanmasına təkan vermişdi.

Eyni zamanda, osmanlı silahının bu uğursuzluqları onların Anadoludakı düşmənlərini də ümidləndirmiş, xüsusilə qaramanlıların yenidən fəal hərəkətə keçməsinə rəvac vermişdi. "Tac-üt-təvarix" müəllifinin bildirdiyinə görə, Qaramanoğlu İbrahim bəy "inkisar-ı mücahidini (osmanlıların məğlubiyyətini – Ş.M.) qənimət bilüb", osmanlı torpaqlarına əl uzatmış, öz kürəkəni Turqutoğlu Həsən bəyi ordusuna başçı təyin edərək, ona osmanlı ərazilərində qarət və talan etmək əmrini vermişdi [2, s.370]. Qaraman əsgərləri Bolvadin, Ömərdağı, Bəybazarı kimi yerlərə hücum edərək, xalqa hədsiz zülm etmişdilər. Belə vəziyyətdə Sultan Murad Qaraman bəyliyinə qarşı yeni bir səfər başlamaq qərarına gəlmiş və 1442-ci ildə hazırlıqlarını başa çatdıraraq, Ədirnədən böyük bir ordu ilə Anadoluya yollanmışdı. Bu səfərdə Amasya sancaqbəyi olan Şahzadə Əlaəddinə də iştirak etmək əmri verilmişdi.

Osmanlıların Qaramana qarşı həyata keçirdikləri bu səfər öncəki hərbi əməliyyatlardan olduqca önəmli bir cəhəti ilə fərqlənirdi. Bu fərqi Xoca Səadəddin belə açıqlayır: "Bu hadisəyə qədər osmanlı padşahlarının heç biri islam ölkələrinin talan edilməsinə izin verməmişdi. Ancaq qaramanlıların uğursuz mövqeyi nəticəsində bu ölkə və torpaqlar da müzəffər [osmanlı] ordularının axın etdikləri sahəyə çevrildi, Konyaya qədərki ərazilər atların ayaqları altında əzilib talan edildi" [2, s.370]. Nəşri də qeyd edir ki, osmanlıların Qaraman elini ələ keçirdikləri zaman "ol qədər məzalim oldu kim, Osman bəylərindən ol vəqtədəgin kimsəsi ol qədər zülm eyləmiş deyildi" [12, s.642-643].

Nəşri və Xoca Səadəddinin bu açıqlamaları çox mühümdür. Qaramanlıların "din düşmənləri" ilə əlbir olması, "kafirlərə" yardım edib qazilərə arxadan zərbə endirməsi, Avropa dövlətləri ilə müttəfiq olması və onların xeyrinə Anadolunun ortasında casusluq etməsi barədə osmanlıların onillərlə apardıqları təbliğat bu dövrdə öz bəhrəsini verməyə başlamışdı. Osmanlı ictimai şüurunda qaramanlılar artıq xristian düşmənlərlə, Qaraman torpaqları isə darülhərblə eyniləşdirilirdi; o dərəcədə ki, Balkanlarda olduğu kimi, Anadolunun ortasında yerləşən bu türk ərazilərinə osmanlı qazilərinin axını və bu yerləri qarət etməsi istər özlərini "islamın müdafiəçisi" sayan osmanlı sultanları tərəfindən, istərsə də, ümumiyyətlə, osmanlı ictimai şüuru tərəfindən qanuni və məqbul addım hesab edilməyə başlamışdı. Etnik münasibətlərin göstəricisi kimi bu, önəmli bir faktdır və ciddi bir tarixçi olan Xoca Səadəddinin ona xüsusi diqqət yetirməsi səciyyəvidir.

Tipoloji və tarixi analogiya nöqteyi-nəzərindən maraqlıdır ki, L.N.Gumilyov rus tarixində bənzər bir hadisəni qeyd etmişdir. O yazır ki, 1169-cu ildə Kiyevin Suzdal knyazı Andrey Boqolyubski tərəfindən zəbt edilməsindən sonra şəhər üç günlük qarət üçün əsgərlərin ixtiyarına verilmişdi. Bu, misli görülməmiş bir hadisə idi. Çünki o zamana qədər ruslar yalnız əcnəbi şəhərlərini qarət edirdilər; müxtəlif knyazlar bir-birləri ilə vuruşsalar da, rus şəhərlərinə qarşı belə əməllərə əl atmağı özlərinə rəva bilmirdilər. Suzdal knyazının bu hərəkəti, onun əsgərləri üçün Kiyevin artıq hər hansı bir zəbt edilən Polşa şəhərindən və ya digər əcnəbi şəhərlərindən fərqlənmədiyini göstərir. Bu da, L.N.Gumilyovun fikrincə, ilkin rus etnik sistemində etnik birlik hissinin yox olması, etnik komplimentarlığın aradan getməsi demək idi [5, s.87].

Eyni zamanda, vilayət-i Qaramanın "şəhərlərini və köylərini ələk-ələk edib xarab eyləyən" (Aşıqpaşazadə) osmanlıların bu səfərdə Anadolu türklərinə qarşı göstərdikləri ifrat qəddarlıq onların özləri haqqında bəyan etdikləri "mücahid və qazi" statusları ilə ziddiyyət təşkil edirdi. Təsadüfi deyil ki, bu hadisəni müəyyən xəcalət və məyusluq hissi ilə təsvir etmək məcburiyyətində qalan erkən müəlliflər osmanlılara hər hansı bir yolla bəraət qazandırmaq ehtiyacını duymuşdular. Aşıqpaşazadənin aşağıdakı sözləri bunun bir örnəyidir: "Osmanlının məmləkət vurub müsəlmanlığa zülm etməsinin səbəbi Qaramanoğlu İbrahim bəy səbəbindən olmuşdur. Və illa, ta bu günədək Osmanlıdan kimsənin haqqına zülm gəlməmişdi nahaq yerə, məgər ki, bilməyə" [10 ,s.183].

Ancaq tarixi paradoks bundan ibarətdir ki, islamı müdafiə bəhanəsi ilə Qaraman türklərinə qarşı səfərə başlayan osmanlı sultanı, eyni müəllifin bildirdiyinə görə, "Rumelinin nə qədər kafir ləşkəri var isə kəndinə tabe, onu dəxi alıb yürüdü, Konyaya çıxdı" [10, s.182]. Beləliklə, növbəti dəfə Anadolu türklərini özlərinə tabe etmək məqsədilə həyata keçirdikləri səfərdə osmanlılar Balkanlardakı xristian vassallarının yardımından istifadə etmişdilər. Şübhəsiz, bu məqam Anadolunun türk mühitində baş verən etnik prosesləri dərk etmək baxımından böyük əhəmiyyət kəsb edir. Kiçik Asiyada osmanlı egidası altında formalaşmaqda olan yeni siyasi və etnomədəni birlik əski səlcuq dövrünün ən güclü qalığı olan Qaraman elini özünə rəqib görərək, onun mahiyyətini inkar edir və varlığına son qoymağa çalışırdı. Anadolunun siyasi və etnomədəni birliyi Qaraman və ya başqa sülalənin öncüllüyü ilə deyil, məhz osmanlıların rəhbərliyi ilə həyata keçirilməli və bərqərar olmalı idi. Bu yolda rəqib və manеə olan bütün digər qüvvələr, o cümlədən qaramanlılar məhvə məhkum idilər.

Ancaq bu dəfə də Sultan Muradın bacısı və İbrahim bəyin xatunu Qaraman hakimini xilas etməyə müvəffəq olmuşdu. Maraqlıdır ki, Qaraman bəyinin üzrxahlığını Osmanlı sultanına çatdırmaq üçün gələn vəzir Qara Sərvər ağa bu hadisənin əsl günahının turqutlu bəylərində olduğunu, İbrahim bəyi bu hərəkətə məhz onların təhrik etdiyini bildirmişdi [12, s.642]. Beləliklə, osmanlı ordusunun Qaraman bəyliyinə səfəri sülhün bağlanması ilə nəticələnmişdi.

1443-1444-cü illərdə Balkanlarda kral III Vladislav və Yanoş Hunyadinin başçılığı ilə birləşmiş macar, polyak və serb ordusunun başladığı səlib yürüşü XV yüzillik Osmanlı dövlətinin tarixində qarşılaşdığı ən böyük təhlükələrdən birini yaratmışdı. İlk mərhələdə türklərin üzləşdiyi məğlubiyyət Balkan yarımadasında osmanlı hakimiyyətini sarsıtmışdı. Osmanlı müəllifləri bu müharibənin də başlanmasını qaramanlıların fitnəsi ilə bağlayırlar. Nəşri, Qaramanoğlu İbrahim bəyin guya macar kralına elçi göndərib: "Sən ötədən, bən bəridən yürüyəlim. Rumeli sənin, Anadolu bənim olsun. Osmanlıyı ortadan götürəlim" söylədiyini xəbər verir [12, s.644].

Müharibənin ilk mərhələsində osmanlılar ağır məğlubiyyətə uğramış və 1444-cu ilin avqustunda Sultan Murad olduqca əlverişsiz Seged sülh sazişini imzalamağa məcbur qalmışdı. Ancaq bir müddət sonra macarlar bu sazişi pozaraq, yenidən hücuma keçmişdilər. Bu

dəfə Bolqarıstan ərazisində Varna yaxınlığında 1444-cü ilin 10 noyabr tarixində baş verən döyüş osmanlıların tam qələbəsi ilə nəticələnmişdi. Bu döyüşdə Macarıstan və Polşa kralı III Vladislav qətlə yetirilmişdi.

Bundan sonra vaxtilə türklərin serblərə qalib gəldiyi məşhur Kosovo çölündə ikinci dəfə osmanlı ordusu Şərqi Avropa dövlətlərinin birləşmiş qüvvələri ilə üz-üzə gəlmişdi. Polşa, macar, çex, serb və başqa Avropa xalqlarının əsgərləri ilə qarşılaşacağını bilən Sultan II Murad öz növbəsində ulu babası Sultan I Murad Xudavəndigar kimi hərəkət edərək, Anadolunun hər tərəfinə çavuşlar göndərib, türk qazilərini "qəza-yi əkbərdə" öz bayrağı altında iştirak etməyə dəvət etmişdi. Osmanlı qaynaqlarında bu hadisə türk qəhrəmanlıq dastanlarına bənzər ifadələrlə təsvir edilmişdir: "Çavuşlar çağırışıb: "Qanı o sultan ətməgin yeyənlər, can-u-baş oynarız deyənlər? Saladır. Bu gün ərlər meydanında kimin anası ər doğurdu? Qəza xələti kimin boynuna biçildi? Əcəl qədəhi kimin əlinə sunuldu? Qanı imdi ol ərlik davasın qılanlar? Gəlsin görəlim!"- dedilər" [12, s.664].

Osmanlı sultanının bu çağırışına Qaraman bəyi də cavab verərək, öz əsgərlərini göndərməli olmuşdu. Ancaq 1389-cu ildə Qaraman əsgərlərinin də iştirak etdiyi birinci Kosovo döyüşündən keçən müddətdə Osmanlı-Qaraman ziddiyyətinin nə dərəcədə dərinləşdiyi bu hadisədən görünür. Osmanlı müəllifləri ikinci Kosovo döyüşündən öncə İbrahim bəyin göndərdiyi qoşunun durumunu ikrah və istehza hissləri ilə təsvir edirlər. Nəşrinin yazdığına görə, Sultan II Murad döyüşdən əvvəl ordunun vəziyyətini yoxlamış, Qaraman əsgərlərinin də rəsm-keçiddən keçməsini əmr etmiş və görmüşdü ki, "cümlə qaltaq üyərli, yırtmac kürklü, örməc quşaqlı, qabalaq dülbəndli, qayış üzəngili, qılıncı bağı ipli, turqutlunun nə qədər at oğrusu varsa, [Qaraman bəyi] onları göndərmiş. Sultan Murad bunları görüb, gülüb aytdı: "Ləşkəri dəxi onutək. Dilin tutub nifaq etməsə, əpsəm yerində otursa" - dedi" [12, s.660].

Çox güman ki, İbrahim bəyin osmanlılara yardıma göndərməli olduğu qoşun, həqiqətən, onun seçkin əsgərlərindən ibarət deyildi. Ancaq unutmamaq lazımdır ki, turqutlu və varsaq türkmanları Qaraman ordusunun əsas hissəsini təşkil etmiş və Anadoluda baş vermiş Osmanlı-Qaraman müharibələrində hər zaman fəal iştirak etmişdilər. Turqutlu və varsaq türkmanlarının XIV-XV yüzilliklərdə Anadolunun "osmanlılaşmasına" qarşı apardıqları mübarizə Anadolu türk tarixinin önəmli, ancaq unudulmuş bir səhifəsini təşkil edir. Bu tarixin bəzi pərakəndə izlərinə, əsasən, erkən osmanlı müəlliflərinin turqut və varsaqlarla bağlı təhqiramiz ifadə və təsvirlərində rast gəlmək mümkündür. Məsələn, Aşıqpaşazadənin "Dəxi sən bil ki, turqut adam olmaz" [10, s.215] ifadəsi bu dövrə aid bütün osmanlı ədəbiyyatı üçün səciyyəvidir. Məhməd Nəşrinin qaramanlılar haqqında düşmənçilik və nifrət dolu sözlərini də məhz bu tarixi gerçəkliyin əksi kimi qəbul etmək gərəkdir. Eyni zamanda, bu sözlər getdikcə daha çox kosmopolit xarakter alan osmanlı elitasının türkmanlara münasibətini aydın şəkildə nümayiş etdirən bir örnəkdir.

XV yüzilliyin ortaları Anadoluda osmanlı-türkman ziddiyyətinin, türkman tayfaları arasında anti-osmanlı ovqatın kəskinləşdiyi bir dövrdür. Təsadüfi deyil ki, 1450-ci illərdə Anadoluya səfər edən Səfəvi Şeyxi Cüneyd burada varsaq, ustaclu, turqut və s. kimi türkman tayfaları arasında özünə xeyli mürid və tərəfdar tapa bilmişdi. Osmanlı dövlətinin şərqdə Qaraqoyunlu dövləti, Ağqoyunlu və Zülqədir bəylikləri, yəni şərq türkmanları ilə həmsərhəd olmaları da bu qarşıdurmanın artmasına təkan vermişdir. Qeyd edildiyi kimi, osmanlı qaynaqları Sultan Məhməd Fatehin Qəstamonu və Trabzon səfərlərini məhz Ağqoyunlu Uzun Həsənin düşmənçilik hərəkətləri və niyyətləri ilə izah edirdilər. Təsadüfi deyil ki, qeyd edildiyi kimi, Qaraman elinin və tayfalarının öncələr görülməmiş qəddarlıqla osmanlılar tərəfindən təxrib edilməsi də məhz bu dövrdə baş vermişdi.

### ƏDƏBIYYAT

1.Şikari'nin Karaman oğulları tarihi. Hazırlayan M.Mesud Koman. Konya: Yeni Kitab Basımevi, 1946
2.Hoca Sadeddin Efendi. Tacü't-Tevarih. Cild 1. İstanbul: Tabhane-i Amire, 1279
3.Gazavat-ı Sultan Murad b. Mehemmed Han. İzladi ve Varna savaşları (1443-1444) üzerine Anonim Qazavatname. Tıpkıbasım, metin, notlar ve bir lüğatçe ile yayınlayanlar H.İnalcık, M.Oğuz. 2 baskı, Ankara: Türk Tarih Kurumu Basımevi, 1989
4.Die Altosmanischen Anonymen Chroniken (türkcə mətn). In Text und Übersetzung Herausgegeben von Dr. Friedrich Giese. Breslau: 1922
5.Гумилев Л.Н. От Руси к России. Очерки этнической истории. Москва: Экопрос, 1992, с. 191
6.Babinger F. Fatih Sultan Mehmed ve Zamanı. 4 baskı. İngilizce baskısından çeviren D.Körpe. İstanbul: Oğlak Bilimsel Kitaplar, 2002
7.Жуков К.А. Об этническом самосознании турок в XIII-XV вв. // Османская империя: государственная власть и социально-политическая структура. Москва: Наука, Главная редакция восточной литературы, 1990
8.Ahmed-i Dai. Çengname. Hazırlayan G.A.Tekin. Harvard University Press, 1992
9.Lütfi Paşa. Tevarih-i Al-i Osman. İstanbul: Matbaa-i Amire, 1341
10.Aşıkpaşaoğlu Ahmed Aşıki. Tevarih-i Al-i Osman. Düzenleyen Çiftçioğlu N.Atsız. // Osmanlı Tarihleri. I. İstanbul: Türkiye Yayınevi, 1949
11.Uzunçarşılı İ.H. Osmanlı Tarihi. Cilt I. Ankara: Türk Tarih Kurumu Basımevi, 1949
12.Mehmed Neşri. Kitab-ı Cihan-nüma. Neşri Tarihi. II cilt. Yayınlayanlar F.R.Unat ve Dr. M.A.Köymen. Ankara: Türk Tarih Kurumu Basımevi, 1957

**ШАИН МУСТАФАЕВ**
*к.и.н.*

**ПРОТИВОСТОЯНИЕ МЕЖДУ ОСМАНСКИМ ГОСУДАРСТВОМ И КАРАМАНСКИМ БЕЙЛИКОМ В 1430-1440-Е ГГ.**

В 1420-е гг. Османское государство, проводящее политику политической централизации анатолийских земель, ликвидировало эгейские эмираты и окончательно присоединило к себе их территории, что вызвало серьезное беспокойство правителей Караманского бейлика. Не имея возможности в одиночку противостоять османцам, правители Карамана стремились к созданию антиосманского военно-политического союза с некоторыми европейскими государствами, что привело к ужесточению османо-караманского противостояния в Малой Азии в 1430-40-е гг.

**SHAHIN MUSTAFAYEV**
***PhD (History)***

**CONFRONTATION BETWEEN OTTOMAN STATE AND KARAMAN BEYLIK IN 1430-1440**

In an effort to politically centralize the Anatolian lands, the Ottoman state liquidated Aegean emirates and finally annexed their territories. The fact caused a grave concern of Karaman beylik rulers. Incapable of opposing Ottomans independently, rulers of Karaman sought to create an anti-Ottoman military-political alliance with some European states that resulted in toughening the Ottoman-Karaman confrontation in Asia Minor in the 1430-1440s.

***Rəyçilər: t.e.d.Ə.İ.Muxtarova, t.e.d.S.A.Məmmədov.***

***AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin 15 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məslahət görülmüşdür (protokol №02).***